# Müqəddəs paytaxt haqqında düşüncələrim...

**Bakı haqqında düşüncələr hər birimizin bu qədim şəhərə olan münasibətimizdən irəli gəlir. Kimsə Bakını uşaqlığı keçən şəhər kimi, kimsə ilk məhəbbətini tapdığı, kim isə həyatı qədər sevdiyi, kim isə sadəcə olaraq yaşadığı ünvanın tərkib hissəsi kimi qiymətləndirir.**

**Mənim üçün Bakı həm Vətəndir, həm ilk məhəbbətimlə rastlaşdığım şəhərdir, həm daima fikrimdə və qəlbimdə dövr edən düşüncələrimin və qayğılarımın, bəzən narahatçılıqlarımın predmetidir.**



Bakının bir çox tarixi sənədlərə görə, iki min ilə yaxın yaşı var. Rəvayətlərdən biri xəbər verir ki, eramızın II əsrində müqəddəs Varfolomey buralara gəlib və xristianlığı təbliğ etdiyi üçün Qız Qalası qarşısındakı qaya üzərində edam olunub. Deməli, bura məskən olub. Burada insanlar yaşayıblar. Onların kimliyindən asılı olmayaraq, bu ərazidəki şəhərdə yaşayıblar. Etiraf edək ki, iki min il yaşı olan şəhərin tarixində bir çox böyük, bəzən də faciəvi hadisələr baş verib. Kiçik bir qala olubsa belə, və yaxud, yeni fərziyyəyə görə, yan-yana durmuş bir neçə qaladan ibarət olubsa belə, yaşadığı ömür ilk növbədə xalqımızın, başqa türkdilli xalqlardan fərqli olaraq, köçəri xalq olmadığını göstərir. Burada şəhər mədəniyyəti, inkişaf etmiş ticarət və sənət növləri olub.

Böyük İpək Yolu üstündə yerləşən Bakı bir çox multani mədəniyyətlərinin xüsusiyyətlərini qavrayıb və özünə xas mədəniyyət mərkəzinə çevrilib. Bəllidir ki, paytaxt statusunu Bakıya XVI əsrdə Şamaxıdan buraya köçən Şirvanşahlar veriblər. Bu status qala divarları daxilində dövlətçilik nəzərindən şəhərsalma siyasətinin aparılmasına və bu prinsip üzrə Bakı ətrafında kiçik kəndlərin salınmasına təkan verib. Beləliklə, müasir dildə desək, Bakı aqlomerasiyası əmələ gəlib.

Ən qədim kəndlərdən olan Şağan, Digah, Buzovna və başqalarında yaşayanlar Bakını ərzaqla təmin etmiş və paytaxt üçün “peyk-məskənlər” vəzifəsini yerinə yetirmişlər. Mütəmadi baş verən müharibələri nəzərə almasaq, təxminən XVIII əsrin sonu XIX əsrin əvvəlinə kimi əhali burada sakit və həyəcansız həyat sürüblər. XIX əsrin ilkin onilliklərində Bakıda təbii bir faktor kimi yerdən üzə çıxan neft haqqında məlumat Şərq dünyasına yayılıb və sonralar Qərbə çatdırılıb. XIX əsrin ikinci yarısında neftin cəlbediciliyi şəhərin qala divarlarından kənara çıxmasına səbəb olub və beləliklə də Bayır şəhərin əsası qoyulub. İlk illərdə bu yeni sahələr də kiçik kəndlər kimi təşkil olunub. Misal üçün Bibiheybət, Çəmbərəkənd və s. Və yalnız XIX əsrin əvvəllərində İçərişəhərdən şimal-şərq istiqamətində yerləşən torpaqlarda yeni şəhər məhəllələri inkişaf edib. Buradan Şərqdən-Qərbə karuonlar yol salıb.

Beləliklə hərbi mühəndis Nikolay fon der Nonne bu yeni ərazilərin ilkin şəhərsalma planını tərtib edib. O dövrdən 100 ildən bir az çox keçib. Bu illər ərzində şəhərimiz inanılmaz dərəcədə inkişaf edib. Yaşayış məhəllələri ilə bərabər bağlar, parklar, teatrlar, yollar inşa olunub ki, XX əsrin əvvəlində Bakı artıq quberniya mərkəzinə çevrilib və burada kapitalizmlə birgə təhsil, səhiyyə, mədəniyyət proqramları özlərinə məxsus yer tutublar.

Bax beləcə, bu gün hər birimizin sevdiyi, qayğısını çəkdiyimiz müasir Bakının tarixi hissəsi yaranıb və demək olar ki, dayanmadan daim inkişafda olub.

Qeyd etməliyik ki, sovet dövründə də Bakının şəhərsalma inkişafına böyük diqqət yetirilib. Şəhərin yeni baş planları tərtib edilib, yeni yaşayış əraziləri salınıb və bugünkü Bakının yeni sərhədləri müəyyənləşdirilib.

60-cı illərdən dövlət tərəfindən başladılan kütləvi mənzil tikintisi 1991-ci ildə əldə etdiyimiz müstəqilliyə qədər davam edib. 70-ci illərdə yeni mikrorayonların salınması, Bakı şəhəri respublikaya rəhbərlik etmiş Heydər Əliyevin xalqın rifah halının səviyyəsinin qaldırılması proqramının ayrılmaz tərkib hissəsi olmuşdur. 8-ci kilometr, Əhmədli, Günəşli yaşayış rayonları bu siyasətin uğurla həyata keçirilməsinin sübutudur.

Məhz bu işlər yüz minlərlə ailənin yaşayış şəraitini yaxşılaşdırmışdır. Deyəndə ki, bundan qabaq Bakı əhalisinin bir qismi zirzəmilərdə yaşayıb, bugünkü nəsil inanmır. Çünki bu gün həqiqətən zirzəmidə yaşamaq ağlasığmaz görünür. Amma bunlar olub. Müasir Bakı bütün bu faciəvi xatirələri tam yaddan çıxarmağa əsas verib.

Bakı dünyanın ən gözəl, ən abad, ən inkişafda olan şəhərlərindən biridir. Bunu mən yox, bakılılar yox, paytaxtımıza gələn çoxsaylı xarici qonaqlarımız etiraf edirlər. Özü də sadə turistlər deyil, bizə qonaq gələn dünya şöhrətli memarlar verir bu yüksək qiyməti.

Müstəqillik dövründə inşa edilmiş unikal binalar, komplekslər sağlam qısqanclıq mövzusuna çevrilmişlər. Sadəcə Ağ Şəhəri götürək. Yaxşı yadımızdadır ki, o ərazilər nə vəziyyətdə idi. İnsan ləyaqətinə yaraşmayan daxmalar, yarıuçuq tikililər, neft qalıqları, üfunət. O dövrün şəkillərini görən əcnəbi həmkarlarımız inanmırlar ki, həmin yerdə gözəl, abad, mədəni, yeni yaşayış şəhərciyi doğulur. Yaxşıdır ki, yaxın sahələrdə o keçmişin qalıqları hələlik öz növbəsini gözləyir. Onları göstərib sübut edirik ki, artıq formalaşan bu gözəl məhəllələr bundan da bərbad vəziyyətdə olublar.

Kimsə deyə bilər ki, iqtisadi inkişaf imkan verir, vəsait var, edirlər. Bəli, şəhərsalmanın təşkili və memarlığın inkişafı üçün iqtisadi inkişaf mütləq şərtlərdəndir. Kasıb, zəif ölkədə bunların inkişafı mümkün deyil. Lakin təkcə puldurmu Bakının inkişafına təsir edən? Əsla! Burada böyük iradə, problemlərin anlaşılması və həlli yollarının düzgün istiqamətləndirilməsi zəruridir. Bu, dövlətin təşkilatçılığı ilə başa gələ biləcək bir işdir.

Gözlərimiz qarşısına Heydər Əliyev prospekti ətrafında yerləşən, keçmiş sənaye müəssisələrinin tutduğu əraziləri gətirək. Hələ sovet dövründən oraların boşaldılması və şəhər məqsədləri üçün istifadə olunması Bakının bütün baş planlarında perspektiv hədəf kimi qeyd olunurdu. Onillər boyu “perspektivdə” qalmış ərazilər 2000-ci illər ərzində yeni gözəl şəhərsalma komplekslərinə çevrildi. Yaşayış, ictimai, inzibati binalar müasir memarlıq əsərləri olaraq, qonaqların Bakıya daxil olduğu prospektin simasını formalaşdırdı. Sovet hökumətinin vəsaiti yox idi? Əlbəttə var idi!

Lakin bunu etmək üçün Prezident İlham Əliyev cəsarəti gərək idi və bu cəsarət və uzaqgörənlik öz bəhrəsini artıq vermişdir.

“Sovetski” küçəsinin yenidən qurulması məsələsi hələ 70-80-ci illərdə ümummilli lider Heydər Əliyev tərəfindən qaldırılmışdı. Hətta oranın baş planına müsabiqə belə elan edilmişdi. Lakin yalnız indi bu böyük proqramın gerçəkləşməsi, yenə də Prezident İlham Əliyevin və ölkənin Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın cəsarəti nəticəsində baş verdi. Onların Bakıya, Bakı sakinlərinə olan məhəbbəti, boşaldılmış 30 hektara yaxın tikinti üçün böyük maraq kəsb edən və cəlbedici ərazidə, cənnət guşəsinə bənzər əzəmətli Mərkəzi parkın salınması üçün zəmin yaratdı.

Fikrimcə, şəhərimizdə ictimai məqsədlər üçün inşa olunan obyektlər kifayət qədər maraqlı və keyfiyyətlidir. Təəssüf ki, belə qiyməti geniş vüsət alan yaşayış tikintisinə şamil etmək çətindir. Son illər ərzində inşa olunmuş çoxsaylı yaşayış evlərinin bəziləri tam simasız və tam zövqsüzdür. Bunların tikintisinə sərf olunmuş vəsaitdən başqa, burada yaşayan sakinlərə mənəvi ziyan dəyir.

Memarlıq insanın mənəviyyatına təsir edən sənət növüdür. Onların həyat tərzinə, zövqünə, hətta tərbiyəsinə belə təsiri var. Bu simasız binaların, orada yaşayıb böyüyən gənclərimizin tərbiyəsinə necə təsiri olacağını düşünəndə məyus oluram. Bunun bir neçə ciddi səbəbi var. İlkin səbəbi, əlbəttə, layihələri hazırlayan memarların kəmsavadlılığı və yaxud biganəliyidir. Hər ikisi xalqa, sənətə xəyanət kimi qiymətləndirilə bilər.

İkinci səbəb layihələrin, mütəxəssislərin müzakirəsinə çıxarılmadan, məmur kabinetlərində təsdiqlənməsi və qəbul edilməsidir. Bu barədə dəfələrlə danışılsa da, “yükü” yerdən qaldıran yoxdur. Hərçənd ki, bu layihələrin ictimaiyyət tərəfindən bəyənilməsi ideyası böyük bir kəşf mövzusu deyil. Belə qurum olub. Bakının baş memarı yanında Şəhərsalma Şurası 1990-cı ildən 2001-ci ilə qədər fəaliyyət göstərib və bir çox baş verə biləcək səhvlərin qarşısını alıb. Sonralar “əl-ayağa dolaşan” olmasın deyə, ləğv edilib.

Bakı kimi möhtəşəm, unikal memarlığa məxsus şəhərdə bir adamın (hətta mütəxəssis olsa belə) fikri ilə şəhərin memarlıq simasına təsir edəcək layihənin qiymətləndirilməsi böyük faciədir.

Memarların lisenziyalaşdırılmasında və layihələrin müzakirələrində mütləq qeyri-dövlət qurumunun iştirakı zəruridir. Belə təcrübə bir çox səhv qərarların qarşısını ala biləcəkdir.

Belə qurum var. Bu, Memarlar İttifaqıdır. Həm beynəlxalq səviyyədə və həm də dövlət rəhbərliyi qarşısında kifayət qədər nüfuzumuz var. Biliyimiz isə, yəqin ki, heç kəsdə şübhə doğurmur. Burada bir fikrimi də bölüşmək istərdim. Ölkəmiz müstəqillik dövründə böyük inkişaf yolu keçib. Həm iqtisadiyyatda, həm də demokratik quruluşda. Bu gün dövlətçiliyimiz o dərəcədə dayaqlıdır ki, hökumətin bəzi vəzifələrini ictimai qurumlara həvalə etmək olar. Misal üçün, yuxarıda qeyd etdiyim layihələrin qiymətləndirilməsi və peşəkarlıq hüquqlarının verilməsi peşəkar ictimai qurumlar tərəfindən aparılaraq, hökumətə dəstək olar. Bunun üçün qanunvericilikdə bəzi dəyişikliklər edilməsi məqsədəuyğun olardı.

Etiraf edək ki, aidiyyəti olan məmurlar bunun təşəbbüskarı olmayacaq. Bunu etməkdən ötrü “Yaradıcı birliklər haqqında” Azərbaycan Respublikasının Qanunu olması ümumxalq işimizə fayda verər...

Belə bir Qanun layihəsi bir neçə il öncə hazırlanmışdır. Onun hazırlanmasında mən də iştirak etmişəm. Hətta bilirəm ki, Milli Məclisdə birinci oxunuşdan da keçmişdi. Lakin sonra kiminsə xoşuna gəlməməsi ucbatından gündəlikdən çıxarıldı.

Söhbətimizin əvvəlində Bakının tarixi mərkəzinin yaranması haqqında danışdıq. Dövlətimizin ali rəhbərliyinin daimi diqqəti və qayğısı nəticəsində tarixi memarlıq abidələrimiz qorunur, bərpa olunur. Bununla bərabər, bəzi yerlərdə peşəkarlıqdan kənar olaraq, Bakının tarixi mərkəzində nə ətrafdakı binaların miqyasına, nə də tarixi məhəllələrin planlı surətdə qorunub saxlanılmasına məhəl qoyulmur. Bunun da səbəbi, bu əraziyə pərakəndə yanaşmaqdadır.

Bakının inzibati rayonlarının sərhədləri, onun vahid şəhərsalma tarixi abidəsi olan mərkəzini dörd yerə bölüb: Səbail, Yasamal, Nəsimi, Nərimanov rayonlarının ərazilərinin bir qismi bu qoruq əraziyə aiddir. Misal gətirim. Bakı sakinlərinin ən sevdikləri Nizami küçəsinin cənub sərhədi Səbail rayonuna, şimal tərəfi isə Nəsimi rayonuna aiddir. Hər iki rayonun rəhbərliyi, memarı və s. aidiyyəti olan işçiləri var. Bunların təbii ki, zövqü də, yanaşmaları da bir-birindən fərqlidir və öz keyfiyyətləri səviyyəsində bu insanlar vəzifə borclarını yerinə yetirərək qərarlar verirlər. Küçənin bir tərəfində biri, o biri tərəfində isə o birisi. Dostlar, küçə birdir! Nizami küçəsidir, Bakının bir neçə nəsil sakinlərinin böyüdüyü “Torqovı” küçəsidir!..

Bu ilin mart ayında Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva ilə sənət adamlarının görüşündə mən bu məsələni şəhər üçün ən böyük təhlükə olduğunu vurğulayaraq qaldırdım. Görüşün sonunda yekun sözündə möhtərəm Prezidentimiz bütün səslənən fikir və təkliflər haqqında danışaraq, Bakının tarixi mərkəzinin sərhədlərinin müəyyənləşdirilməsi və bu əraziyə xüsusi status verilməsi ideyasını böyük həvəs və hərarətlə dəstəklədi. Hətta Dənizkənarı Bulvarı və İçərişəhəri nümunə gətirib, onlara xüsusi status veriləndən sonra oradakı vəziyyətin nə dərəcədə yaxşılaşdığını təsdiqlədi. Bu barədə danışarkən cənab Prezident yerindəcə tapşırıqlar da verdi. Biz Memarlar İttifaqı olaraq, bu tapşırıqların bizə aid olan hissəsini - Bakının tarixi mərkəzinin sərhədlərinin müəyyənləşdirilməsi təklifini 3 gün ərzində hazırladıq və müvafiq qaydada təqdim etdik. Bu sənəd təhlil edilib və müxtəlif dövlət qurumlarına və nazirliklərinə göndərildi.

Qeyd etməliyəm ki, mənim iclasda çıxışım bu təşkilatlarda böyük həyəcana səbəb oldu. O zaman mən düşünürdüm ki, bu sevinc həyəcanıdır.

Üstündən 5 ay keçib: nə təhlil var, nə də təklif. Düşünürəm ki, burada təşkilatlararası maraqlar məsələnin həllinə mane olur. İndi başa düşürəm ki, o həyəcan maraqların pozulması səbəbindən imiş. Əlbəttə, bu ərazidə torpaq, mülkiyyət, inzibatçılıq və başqa maraqlar çoxdur. Lakin məqsədin nə dərəcədə vacibliyini nəzərə alaraq, öz maraqlarını aşıb, vətənpərvərliyə üstünlük vermək lazımdır. Ümid edirəm ki, bu sözlərim aidiyyəti olan insanların qəlbinə çatacaqdır. Əgər çatmazsa, heç şübhəm yoxdur ki, dövlət başçısı yaxın zamanda tapşırığının nə dərəcədə icra olunduğunu soruşacaq. Çünki o, yurdunu, tarixini, mədəniyyətini yüksək tutan şəxsiyyətdir.

Həmin görüşdə Bakıda XX əsrin parlaq memarlıq ulduzları olan Sadıx Dadaşovun və Mikayıl Hüseynovun abidələrinin ucaldılması məsələsi də səsləndi və cənab Prezident tərəfindən tapşırıq verildi. Ümid edirəm ki, Bakının memarlıq simasını formalaşdıran əsərlərin müəlliflərinin abidələri yaxın vaxtda ucaldılacaq.

Bakı haqqında hər insan başa düşdüyü səviyyədə düşünür. Biri uşaqlığı keçdiyi şəhər kimi, o biri ilk məhəbbətini tapdığı yer kimi, kim isə ünvanının bir hissəsi kimi...

Gəlin Bakıya həm qürur duyduğumuz müstəqil dövlətimizin paytaxtı kimi, həm havasına, boz divarlarına, günəş altında əriyən asfaltına qurban olduğumuz müqəddəs yer kimi, həm hər birimizin qayğısına, qulluğuna, məhəbbətinə böyük ehtiyac duyan ağbirçək anamız kimi münasibət bəsləyək. Belə olarsa, gələcək nəsillər qarşısında vicdanımız təmiz, başımız uca olar.

**Elbay QASIMZADƏ,**
**Azərbaycan Memarlar İttifaqının İdarə Heyətinin sədri,**
**Respublikanın Əməkdar memarı.**





